**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsi Aparatının ştat sayının müəyyən edilməsi və "Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsi Aparatının və Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsi Aparatının ştat cədvəllərinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 2 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin müraciətini nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsi Aparatının ştat sayı 23 vahid müəyyən edilsin.

2. "Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsi Aparatının və Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsi Aparatının ştat cədvəllərinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 2 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

4. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, "17 " aprel 2024-cü il

№ 36